**Kino sənəti insan təxəyyülünün, kollektiv yaddaşın və mədəni özünüdərkin güzgüsü kimi zaman və məkan sərhədlərini aşır. Bu sənət növü estetik formalar vasitəsilə sosial reallıqları ifadə etməklə yanaşı, həm də cəmiyyətin dəyərlərini, narahatlıqlarını və inkişaf meyillərini əks etdirir. Həmin dəyərləri gələcək nəsillərə ötürən güclü vasitəyə çevrilir. Məhz bu səbəbdən XIX əsrin sonlarında texnoloji yeniliklər və estetik axtarışların sintezindən yaranan kino sənəti qısa müddətdə qlobal mədəniyyətin başlıca ifadə formalarından biri olmuşdur. Hər şey fotoqrafiyanın inkişafı ilə başlamışdı. 1895-ci ildə fransız ixtiraçıları Oqüst və Lui Lümyer qardaşları dünyada ilk dəfə "kinematoqraf" adlı cihazla qısa filmlər çəkib nümayiş etdirmişdilər. Onların ərsəyə gətirdikləri "Gələn qatar" filmi o qədər realist idi ki, tamaşaçılar elə bil qatarın üzərlərinə gələcəyini düşünüb qorxmuşdular. Həmin vaxtlar çəkilən filmlər sadə idi - insanların gündəlik həyatı, təbiət səhnələri, şəhər görüntüləri. Lakin kino sənəti yavaş-yavaş dəyişdi, hekayələr əsasında qurulmağa başladı, ekran canlandı və kino əsl sənətə çevrildi.**



# Keçmişi, bu günü, hətta gələcəyi canlandıran sənət

Azərbaycan kinosu da hər zaman özünəməxsusluğu və milli ruhu ilə seçilmiş, əsrlərlə formalaşan dəyərlərimiz, adət-ənənələrimiz kinonun estetik dili ilə qorunaraq gələcək nəsillərə ötürülmüşdür. Hətta müstəqil olmadığımız dövrlərdə belə milli kinomuz xalqımızın qan yaddaşını, kimliyini və mənəvi dirənişini incə məqamlarla və bədii ustalıqla təqdim etmişdir. Maarifləndirici missiyanı da yerinə yetirən bu sənətdə rejissor məharəti və bədii təxəyyül birləşərək xalqımızın qəhrəmanlıq ruhunu, milli-mənəvi dirənişini canlandırmışdır. Bəzən bir film bizi öz emosional dərinliyi ilə ağlatmış, bəzən isə qəhqəhəyə boğaraq gündəlik həyatımızın ritmini dəyişmişdir. Elə filmlər olub ki, onların təsirindən uzun müddət ayrıla bilməmişik. Bir çox aktyorlar məhz kinodakı rolları ilə yaddaşlara həkk olunub, cəmiyyətin düşüncə tərzinə təsir ediblər. Azərbaycan kino sənətinin tarixi 1898-ci ildən başlanır. Dünyada kino sənətinin təzəcə formalaşdığı bir dövrdə Lümyer qardaşlarının ilk film nümayişindən ilham alan fransız fotoqraf və rejissor Aleksandr Mişon Bakıya gələrək milli kinomatoqrafiyamızın əsasını qoydu. Onun "Balaxanıda neft fontanı" və "Bibiheybət neft mədənində yanğın" adlı qısametrajlı süjetləri Azərbaycanda lentə alınan ilk filmlər kimi tarixə düşdülər. Elə bu addımla milli kino tariximizin bünövrəsi qoyuldu. Sonrakı illərdə isə bir-birindən fərqli janrlarda çoxsaylı ekran əsərləri təqdim olundu. 1915-ci ildə Qafqazda Piron qardaşlarının açdıqları səhmdar cəmiyyətləri tərəfindən Bakı, Tiflis, İrəvan şəhərlərində prokat kontorları yaradıldı. 1915-ci ildə adıçəkilən cəmiyyət neft sənayeçilərinin pulu ilə M.Musabəyovun "Neft və milyonlar səltənətində" romanı əsasında eyniadlı ilk Azərbaycan bədii filminin çəkilişinə başladı. Filmi çəkmək üçün Peterburqdan rejissor B.N.Svetlov dəvət olundu. Təbiət mənzərələri Bakıda və ətraf kəndlərdə, pavilyonla bağlı səhnələr isə Tiflisdə çəkilirdi. Filmdə Lütfəli bəy rolunu H.Ərəblinski oynayırdı. 1916-cı ildə Bakıda Ü.Hacıbəyovun "Arşın mal alan" operettası əsasında ilk Azərbaycan kinokomediyası çəkildi. 1919-cu ildə isə, Azərbaycanın müstəqilliyinin ildönümü münasibətilə "Təntənə" adlı tammetrajlı film ekranlarda nümayiş etdirildi. 1923-cü ildə Azərbaycan Foto-Kino İdarəsi təsis olundu. AFKİ ayrı-ayrı sahibkarların foto, kinoteatr və prokat kontorların milliləşdirilməsi və birləşdirilməsi tədbirlərini həyata keçirirdi. O zamanlar AFKİ-nin nəzdində Bakıda "Təyyarə", "Edison", "Milyon", "Ladya", "Mədənçi" kinoteatrları da var idi. 1924-cü ildə AFKİ ikiseriyalı "Qız Qalası əfsanəsi" adlı bədii filmi ekranlara çıxardı. Etnoqrafik cəhətdən maraqlı olan bu filmdə müəlliflər Şərq ekzotikasından qaça bilməmişdilər. 1920-ci ildən etibarən isə Azərbaycanın kino məkanı sovet ideologiyasının təsirinə düşdü və bu dövr "sovet kinosu erası" kimi yadda qaldı. Həmin illərdə çəkilən "Ulduz", "Şərikli çörək", "Bizim Cəbiş müəllim" kimi filmlər nə qədər ideoloji kontekstdə formalaşsa da, onların xalq arasında bu qədər sevilməsinin başlıca səbəbi milli ruhun, adət-ənənələrin və həyat tərzimizin ustalıqla təqdim olunması idi.

Sovet senzurası şəraitində belə, rejissorlar azərbaycançılıq ideologiyasından uzaqlaşmadan, ekran dili ilə xalqa yaxın olmağı bacardılar. 1925-ci ildə rejissor Abbas Mirzə Şərifzadə tərəfindən lentə alınan "Azərbaycana səyahət" filmi gənc respublikanın mədəni və iqtisadi həyatından bəhs edən ilk ciddi ekran əsərlərindən biri kimi kino tariximizə düşdü. Elə həmin illərdə "Azərbaycan ekranı" kinojurnalı da fəaliyyətə başladı. Bu kinojurnal xalqın gündəlik həyatını, kolxoz quruculuğunu, sənaye yeniliklərini, xüsusilə də neft sahəsində baş verən texniki dəyişiklikləri sənədli kadrlarla gələcək nəsillərə çatdırmaq missiyasını daşıyırdı. Azərbaycan kinosu hələ o zamanlar real həyat materialı əsasında bitkin insan obrazı yaratmağa cəhd edir, bədii təqdimatla sənədli faktı birləşdirərək unikal dil formalaşdırmağa çalışırdı. Bu isə artıq o dövr üçün ciddi bədii nailiyyət sayıla bilərdi. Sovet İttifaqının dağılmasından sonra isə Azərbaycan kinosu yeni bir reallıqla üzüzə qaldı. Tənəzzül dövrü başlandı, film istehsalında ciddi azalmalar müşahidə olundu. Lakin buna baxmayaraq, həmin dövrdə də ekranlaşdırılan bəzi filmlər öz bədii gücü və emosional təsiri ilə yaddaşlarda dərin iz buraxdı. Xüsusilə Qarabağ münaqişəsi mövzusunu əhatə edən "Fəryad", "Özgə vaxt", "Biz qayıdacağıq", "Sarı gəlin", "Lal çinar", "Arxada qalmış gələcək" kimi filmlər milli ruhu bədii dillə ifadə edən ekran salnamələrinə çevrildi. Bu filmlər Azərbaycan kinosunun dəyişən ictimai-siyasi reallıqlar qarşısında da susmadığını, əksinə, xalqın ruhuna çevrilərək onun ağrılarını, ümidlərini və möhkəmliyini kino dili ilə gələcək nəsillərə çatdırmaq əzmini qoruduğunu göstərdi. Məhz bu səbəbdəndir ki, Azərbaycan kinematoqrafiyası 127 illik bir tarixə sahibdir. Hər ili, hər dövrü özünəməxsus iz qoyan böyük uğurlara imza atan ekran əsərləri, bəzən də qadağalarla mübarizə içində formalaşan sənət nümunələri ilə doludur.




Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Azərbaycan kinematoqrafiyasının inkişafında rolu danılmazdır. O, incəsənətin bütün sahələrini yüksək dəyərləndirsə də, kino sənətinə xüsusi həssaslıq və diqqətlə yanaşmış, bu sahəni milli-mədəni kimliyin təbliğində, xalqın tarixi yaddaşının qorunmasında əvəzsiz vasitə kimi qiymətləndirmişdir. Ümummilli Lider vurğulamışdır ki, Azərbaycan kinematoqrafiya xadimləri xalqımızın keçmişindən, müasir həyatından, mənəvi dəyərlərindən bəhs edən yüksək səviyyəli ekran əsəri yaratmaqla milli təfəkkürün formalaşmasına xidmət etmişlər. Hələ 1970-80-ci illərdə respublikaya rəhbərlik etdiyi dövrdə Heydər Əliyev kino sənətinə qayğı və diqqəti ilə seçilirdi. Bu dövr Azərbaycan kinosunun "qızıl illəri" kimi yadda qalmışdır. O zaman ərsəyə gələn "Babək", "Dədə Qorqud", "Nəsimi", "Qatır Məmməd", "İstintaq", "Uşaqlığın son gecəsi" kimi filmlər mədəni yaddaşda silinməz iz qoymuşdur. Heydər Əliyev ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra da milli kino sənətini daim diqqət mərkəzində saxlamışdır. Prezident kimi fəaliyyəti dövründə kino xadimlərinə dövlət səviyyəsində qayğı göstərilmiş, yaradıcı mühitin qorunub saxlanması üçün zəruri qərarlar qəbul olunmuşdur. Ulu Öndər Azərbaycan kino sənətinin zəngin ənənələrindən danışarkən, xüsusilə tarixi mövzulara həsr olunmuş bədii filmləri yüksək dəyərləndirmiş, bu sahənin milli şüur üçün nə qədər əhəmiyyətli olduğunu dönə-dönə vurğulamışdır. Azərbaycan kinosu öz inkişaf və intibah dövrünə qədəm qoyaraq 1970-1980-ci illərdə daha böyük uğurlara imza atmışdır. Həmin ərəfədə böyük və fundamental əsərlər ekranlaşdırılmaqla yanaşı, eyni zamanda ölkəmizdə güclü rejissor truppası, aktyor heyəti formalaşmışdır. O illərin məhsulu olan "Uzaq sahillərdə", "Yeddi oğul istərəm", "Axırıncı aşırım", "Nəsimi", "Dədə Qorqud", "Babək", "Dəli Kür" və digər fundamental ekran əsərləri yaradılmışdır. Bu filmlər xarakter, kolorit və obraz baxımından milli-mənəvi dəyərlərimizi təbliğ etmiş, azərbaycançılıq, milli kimlik və adət-ənənələrin nümayişini həyata keçirmişdir.

Azərbaycan kinosunun süjet xətti təkcə qəhrəmanlıqdan ibarət olmamışdır. Kinematoqrafçılarımızın çəkdikləri filmlər janr müxtəlifliyi, musiqili komediya, dedektiv, macəra, psixoloji, qrotesk, sosial pamflet, nağıl və digər janrlarda da özünü mükəmməl şəkildə göstərmişdir.

Müstəqillik əldə edildikdən sonra Azərbaycan cəmiyyəti qarşısında yeni çağırışlar, yeni ideoloji və mədəni hədəflər meydana çıxmışdır. Milli kinomuz bu çağırışlara cavab olaraq, əvvəlki illərlə müqayisədə sayca az olsa da, məzmunca yüklü və dərin mənalı filmlər yaratmışdır. Azərbaycan kinematoqrafçıları müstəqil dövlətçiliyin, milli ideologiyanın formalaşdığı bir dövrdə ruhun və düşüncənin aynası olmaq məsuliyyətini üzərlərinə götürmüşdülər. Belə bir mürəkkəb tarixi mərhələdə ərsəyə gəlmiş "Yarasa", "Özgə vaxtı" kimi filmlər yeni dövr Azərbaycan kinosunun orijinal nümunələri kimi dəyərləndirilə bilər. Bu filmlər bir tərəfdən keçid dövrünün psixoloji və sosial portretini təqdim etmiş, digər tərəfdən isə milli kino məktəbinin davamı kimi özünü göstərmişdi. Kino xadimləri məhdud texniki və maliyyə imkanlarına baxmayaraq, sənətin estetik tələblərindən geri çəkilməmişdilər. Onlar azad düşüncə, milli ruh və yüksək sənətkarlıqla yeni bir mərhələnin əsasını qoymuşlar. 1998-ci il avqustun 19-da qəbul edilmiş "Kinematoqrafiya haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müasir müstəqil respublikada dövlət kinematoqrafiyasının hüquqi bazası formalaşdırmışfır. 1996-cı ildə Azərbaycan Dövlət Film Fondunun yaradılması filmlərimizin mühafizəsini təmin etmişdir.

Ümummilli Liderin kinonun inkişafı üçün gördüyü işlər Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısı 2007-ci il fevralın 23-də "Kino sənətinin inkişafı haqqında", 2008-ci il avqustun 4-də isə "Azərbaycan kinosunun 2008-2018-ci illər üçün inkişafına dair Dövlət Proqramı" haqqında sərəncamlar imzalamışdır. Dövlət proqramında kinofilmlərin istehsalının artırılması, eləcə də müasir kino avadanlıqları və texnikası ilə təchizat, xarici ölkələrlə birgə film istehsalının genişləndirilməsi, kinoteatrların yenidən qurulması nəzərdə tutulmuşdur. Artıq ölkəmizdə kinostudiyaların maddi-texniki bazaları gücləndirilmiş, yeni filmlər çəkilmiş, kino sənətimiz inkişafın müasir mərhələsinə qədəm qoymuşdur. Son illər Azərbaycan filmləri xarici ölkələrdə keçirilən 40-dan çox beynəlxalq festivalda təmsil olunmuşdur. Ənənəvi olaraq keçirilən Beynəlxalq Kann kinofesivalında bir çox ölkələrin pavilyonları ilə yanaşı, ilk dəfə olaraq, Azərbaycan pavilyonu da təşkil edilmişdir. Azərbaycan kinosu festivalda dövlət sifarişi ilə çəkilmiş "Aktrisa" və "Sahə" bədii filmləri ilə təmsil olunmuşdur. Gənc kinematoqraflarımızın çəkdikləri qısametrajlı filmlər də Danimarka, ABŞ, Rusiya, Ukrayna, Hindistan, Almaniya, Türkiyə və başqa ölkələrdə keçirilən beynəlxalq festivallarda nümayiş etdirilmişdir. Milli kinomuzun əsas mövzularından biri də Qarabağ münaqişəsi olmuşdur. Azərbaycanlıların öz yurd-yuvalarından didərgin salınması, ermənilərin Azərbaycan torpaqlarında törətdikləri vəhşiliklər filmlərin əsas süjet xəttini təşkil edirdi. Müstəqillik dövründə çəkilmiş "Fəryad", "Ağ atlı oğlan", "Ümid", "Arxada qalmış gələcək", "Biz qayıdacağıq", "Xoca", "Dolu" bu qəbildəndir.

Müasir Azərbaycan filmləri arasında "Buta" (2011) və "Nar bağı" (2017) filmləri böyük uğur qazanmışdır. "Buta" filmi, Azərbaycanın qədim nağıllarından ilham alaraq çəkilmiş və beynəlxalq festivallarda böyük maraqla qarşılanmışdır. "Nar bağı" isə sosial problemləri və insan münasibətlərini bədii şəkildə əks etdirən bir dramdır və 2017-ci ildə "Golden Globe" nominasiyası üçün Azərbaycanı təmsil etmişdir. İkinci Qarabağ müharibəsinin təsiri və müharibə sonrası dövrün sosial problemləri geniş şəkildə əks etdirən "Hədəf" (2020) və "Sonuncu" (2022) kimi filmlər müharibənin acı fəsadlarını və qələbə sevincini tamaşaçıya emosional və bədii dərinliklə təqdim edirlər. Bu cür filmlər Azərbaycan xalqının keçmişini və müasir reallıqlarını cəmləşdirərək ölkənin mədəniyyətini dünya səhnəsində tanıdır. Hər il avqustun 2-si Azərbaycanda Milli Kino Günü qeyd olunur. Bu tarix rejissorların, ssenaristlərin, aktyorların peşə bayramı olmaqla yanaşı, həm də Azərbaycan tamaşaçısının, ekran qarşısında duyğulanan, sevinən, düşünənlərin bayramıdır.

**Fidan ƏLİYEVA,**
**"Respublika".**

Respublika .- 2025.- 2 avqust (№ 159).- S.10.